# Qanla yazılmış şərəfli səhifə

**Yanvarın 20-si təqvimdə adi bir tarix deyil. Bu tarix xalqımızın yaddaşına qara hərflərlə yazılsa da, ruhumuzda işıq kimi parlayan bir gecənin simvoludur. O gecə Bakı səması azadlıq uğrunda küçələrə çıxmış insanlara tuşlanan güllə səsləri ilə yaralandı, şəhərin küçələri tankların soyuq dəmiri ilə titrədi. O gecə Bakı həm də qürur dolu bir gün yaşadı. Qaranlıq gecənin bağrına bir həqiqət doldu: azadlıq qorxudan güclüdür.**

20 Yanvar gecəsində imperiya gücü xalq iradəsi ilə üz-üzə gəldi. Silahsız insanlar öz haqlarını müdafiə etmək üçün küçələrə çıxdılar. Azadlığa təşnə olan insanlar vicdanı, inamı və Vətən sevgisi ilə silahlanmışdılar. Tankların qarşısında sinəsini sipər edən bu insanlar tarixə adlarını qanla deyil, şərəflə yazdılar. Bakı küçələrinə doldurulan zirehli texnika azadlıqsevərlərin bədənlərini əzsə də, iradələrini sındıra bilmədi. İllərlə əlimizdən alınan azadlığımız əzilən cismimizdən sağlam ruh kimi çıxdı.

Şəhidlərin qanı torpağa düşdüyü an Vətən daha da cana gəldi. Artıq bu torpaq susqunluğun, qorxunun deyil, cəsarətin torpağına çevrildi. Mərd oğullarını, ciyərparalarını yola salan analar sinələrinə göz yaşlarını axıdaraq həm də "Azadlıq" hayqırdılar. Atalar dik duraraq sükutla taleyin üzünə baxmadılar; ölümün gözünə dik baxa-baxa gənclərə azadlığın yolunu göstərdilər. 20 Yanvar bir gecənin faciəsi kimi tariximizə yazılmadı, bir millətin oyanış dastanı olaraq yaddaşımıza əbədi möhrünü vurdu.

20 Yanvar həm də həqiqətin sınağı idi. O gecə dünya susdu, amma Azərbaycan danışdı. Qanlı səhnələrin fonunda haqqın səsi eşidildi. O gecə imperiyaya rəhbərlik edənlər anladılar ki, nə etsələr də, xalqın iradəsi tapdanmaz, azadlıq güllə ilə boğulmaz. Bu səs sonradan meydanlarda, tribunalarda, beynəlxalq kürsülərdə eşidildi, nəhayət, dövlət müstəqilliyinin möhürünü vurdu.

20 Yanvar faciəsinin ən ağır və taleyüklü anlarında SSRİ rəhbərliyi tərəfindən siyasi təcridə məruz qalan Ulu Öndər Heydər Əliyevin Moskvada Azərbaycan nümayəndəliyinə gəlişi yalnız bir siyasi etiraz aktı deyildi. Bu, Ümummilli Liderin ürəyindən qopan hayqırtı, xalqına qarşı törədilən cinayətə susmayan böyük şəxsiyyətin vicdanının çağırışı idi. Heydər Əliyev həyatını real təhlükə altına ataraq imperiya qorxusunu yarıb haqqın səsini dünyaya çatdırdı, Qanlı Yanvarın məsuliyyətinin açıq şəkildə SSRİ rəhbərliyinin üzərində olduğunu qətiyyətlə qeyd etdi. Həmin tarixi çıxış bir insanın deyil, bir millətin qeyrətinin və gələcək müstəqilliyin bünövrəsinə çevrilən cəsarətli mövqeyinin təcəssümü idi.

Zaman keçdikcə yaralar sağalır. Taleyimizə, tariximizə tuşlanan güllənin, qəsdin acısı yaddaşımızda sağalmamalıdır. Çünki yaddaş itərsə, tarix təkrar olunar. 20 Yanvar bizə bir dərs verdi: azadlıq pay verilmir, qanla alınır. Onu qorumaq daha böyük məsuliyyətdir.

Bu gün Şəhidlər xiyabanında atılan hər addım bir anddır. Bu hər bir gəncin, ahılın, Azərbaycan vətəndaşının andı olmalıdır ki, o gecənin qurbanları unudulmasın, o qan hesabına qazanılan azadlıq heç vaxt ucuzlaşdırılmasın. 20 Yanvar - matəm olduğu qədər də qürur günüdür. Çünki o gecə Azərbaycan diz çökmədi, ayağa qalxdı. Qaranlıqdan işığa gedən yolun başlanğıcı məhz o gecə başladı.

Ruhunuz şad olsun, azadlığın keşikçiləri! Sizin susqun qəhrəmanlığınız bu xalqın ən yüksək səsidir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 20 yanvar (№11).- S.9.